**Azərbaycan Respublikası**
**Bakı Şəhəri Binəqədi Rayonu İcra Hakimiyyəti başçısının**

# S Ə R Ə N C A M I

№ 84 "16" 03 2018-ci il

**Binəqədi rayon təsərrüfatının 2018-ci ilin yaz-yay mövsümünə hazırlığı ilə əlaqədar Tədbirlər Planının təsdiq edilməsi haqqında**

2018-ci ilin yaz-yay mövsümündə rayon təsərrüfatının fasiləsiz və etibarlı işini təşkil etmək, əhalinin kütləvi istirahət yerlərinin, qəsəbə və mikrorayonlarda yaradılmış intrastruktur obyektlərinin, yaşayış binalarının, məcburi köçkünlərin kompakt məskunlaşdıqları yaşayış yerlərinin, yol və səkilərin, park və xiyabanların, işıqlandırma və suvarma sistemlərinin, yaşıllıqların qorunub saxlanılmasını və etibarlı istismarını təmin etmək, məcburi köçkünlərin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, digər aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan ailələrin problemlərinin həllinə diqqətlə yanaşmaq, vətəndaşların müraciətlərinin baxılmasında operativliyi gücləndirmək və ictimai asayişin qorunmasına yönəlmiş tədbirlər görmək məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.1-ci bəndinə əsaslanaraq

**Qərara alıram:**

**1.** Rayon təsərrüfatının 2018-ci ilin yaz-yay mövsümünə hazırlıqla əlaqədar Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

**2.** Rayon İcra Hakimiyyəti başçısının inzibati və sahə inzibati ərazi dairəsi üzrə nümayəndələrinə, Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin, Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin və rayon ərazisində fəaliyyət göstərən digər xidmət sahələrinin rəhbərlərinə tapşırılsın, rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrə tövsiyə olunsun ki, Binəqədi rayon təsərrüfatının 2018-ci ilin yaz-yay mövsümünə hazırlıqla əlaqədar bu Sərəncamla təsdiq olunan Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icasını təmin etsinlər və Tədbirlər Planının icrası barədə 10 gündə bir dəfə Rayon İcra Hakimiyyətinə məlumat versinlər.

**3.** Rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırılsın ki, rəhbərlik etdikləri təşkilatların istifadəsində olan ərazilərin və xidmət sahələrinin yaz-yay mövsümünə hazırlığını, sanitar normalara uyğun

saxlanılmasını, yaşıllıqlara qulluğun təşkilini təmin etsinlər, əhalinin istirahət yerlərinin saxlanılmasına və qorunmasına nəzarəti gücləndirsinlər.

4. Binəqədi Rayon Sukanal İdarəsinin rəisi Elnur Əliyevə tapşırılsın ki, rayon təsərrüfatının yaz-yay mövsümünə hazırlığı ilə əlaqədar su təchizatı və kanalizasiya şəbəkələrində mövcud olan problemlərin aradan qaldırılması istiqamətində görülən işlərə nəzarəti artırsın və təsərrüfatdaxili su şəbəkəsinin nəzərdə tutulmuş qrafikə və təzyiqə uyğun işləməsini təmin etsin. İçməli su şəbəkəsi olmayan yerlərdə əhalinin içməli suya olan tələbatını ödəmək üçün zəruri tədbirlər görsünlər.

5. Binəqədi Rayon Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Azad Mustafayevə və Biləcəri Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Ülvi Həsənova tapşırılsın ki, yaz-yay mövsümündə əhalinin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi məqsədilə görülən işlərə nəzarəti gücləndirsinlər.

6. Binəqədi Rayon Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Azad Mustafayevə və Biləcəri Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Ülvi Həsənova, Binəqədi Rayon Sukanal İdarəsinin rəisi Elnur Əliyevə, "Azəristiliktəchizat" ASC-nin 3 saylı İstilik Sistemlərinin İstismarı Sahəsinin rəisi Rövşən Tağıyevə tapşırılsın ki, baş vermiş qəzaların aradan qaldırılması zamanı asfalt ortüyü vurulmayan yerlərin bərpasını təmin etsinlər.

7. Rayon İcra Hakimiyyəti başçısının müavinləri Aygün Əliyeva, Vüsar İsmayılov, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov və Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə tapşırılsın, Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin sektor müdiri Abuş Məmmədova tövsiyə edilsin ki, rayon ərazisində məskunlaşmış məcburi köçkünlərin, şəhid ailələrinin, Qarabağ əlillərinin və onlara bərabər tutulan şəxslərin, sosial müdafiəyə ehtiyacı olan aztəminatlı ailələrin problemlərinin diqqət mərkəzində saxlanılması və onların həllinə yönələn tədbirlərin görülməsini təmin etsinlər.

8. Rayon İcra Hakimiyyəti başçısının müavinləri İlqar Süleymanov, Aygün Əliyeva, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov və Hüquq şöbəsinin müdiri Yunis Hüseynova tapşırılsın ki, rayonun qəsəbələrində və mikrorayonlarında əhalinin sıx toplaşdığı yerlərdə ictimai asayişin, ictimai-siyasi sabitliyin təmin edilməsi, ayrı-ayrı şəxslər və qruplar tərəfindən ictimai asayişin pozulmasına yönəlmiş halların qarşısının alınması üçün tədbirlərin görülməsini, bununla əlaqədar əhali arasında maarifləndirmə işlərinin aparılmasını, ictimai təşkilatların, vətəndaş cəmiyyəti institutlarının bu işlərə daha fəal cəlb edilməsini təmin etsinlər.

9. Rayon İcra Hakimiyyəti başçısının müavinlərinə və Aparatın şöbə müdirlərinə, inzibati və sahə inzibati ərazi dairəsi üzrə nümayəndələrə tapşırılsın,

bələdiyyə sədrlərinə tövsiyə edilsin ki, yaz-yay mövsümünün başlanması ilə əlaqədar əhalini narahat edən problemlərə diqqətlə yanaşılması, bununla əlaqədar onların müraciətlərinə baxılmasının operativliyinin təmin edilməsi üçün tədbirlərin görülməsini təmin etsinlər.

**10.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**

**№**

**Əsli ilə düzdür**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**